

# Günel EMİNLİ

Amansız ölüm qələm yoldaşımız Günel Eminlini aramızdan apardı.

Günel Bəylər qızı Eminli 1984-cü il iyun ayının 9-da Masallıda dünyaya gəlib. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Bakı Slavyan Universitetinin ədəbi yaradıcılıq kursunun, Gənc Ədiblər Məktəbinin, Rüstəm İbrahimbəyovun Bakı Kino Məktəbinin müdavimi olub. Azərbaycan Avropa Məktəbinin müəllimi idi. 2008-ci ildən bədii yazıları ilə mətbuatda çıxış edib. Hekayə, şeir və esseləri maraqla qarşılanıb. "Yalanla həqiqət arasında" adlı tərcümə kitabı işıq üzü görüb. Son illər uşaqlar üçün daha çox yazırdı. "Əlifba", "Cənnətdə payız", Türkiyədə çapdan çıxmış "Salala" kitablarının müəllifidir. IV Animafilm Beynəlxalq Animasiya Festivalının yerli müsabiqəsində "Balaca qırmızı şar" adlı qısametrajlı film ssenarisi müvafiq nominasiya üzrə mükafata layiq görülüb.

İstedadlı idi, gənc idi, həyatdolu idi, ömür vəfa etsəydi, neçə-neçə əsərlərə, neçə-neçə uğurlara imza atacaq, pərəstişkarlarını sevindirəcəkdi.

İstedadlı qələm yoldaşımız, səmimi, istiqanlı həmkarımız Günel Eminlinin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**